# Od çərşənbəsi - Günəşə, Oda olan inam, etiqad

Xalqımız boz ayda qeyd edilən ikinci çərşənbəni - Od çərşənbəsini qeyd edir. Artıq bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir. Novruz bayramına qədər dörd çərşənbə geniş şəkildə qeyd edilir ki, bunlar da su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi, torpaq çərşənbəsidir. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır. İlin axır çərşənbələrindən ikincisi xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. Bu Çərşənbədə oda sitayiş edilir və onun şərəfinə şənliklər təşkil olunur. Günəş istisini arzulayan ulu babalarımız böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər.




Atəşpərəst etiqadlarına görə, "müqəddəs od"u insana ağac vermişdi. Ulu babalarımız bunun şərəfinə şənliklər keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub-saxlanan istilik də müqəddəs hesab olunurdu. Elə bu istiliyi qoruyub-saxlamaq şərəfinə şənliklər yaranmışdı. Od ilə istinin əsas mənbəyi isə Günəş hesab olunurdu. Onu çağıran Qodu nəğmələri xalq arasında geniş yayılar, günəşin istiliyi şərəfinə şənliklər düzənlənirdi.İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: "Od imandır", "Od düşdüyü yeri yandırar" və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır.



Od Çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, Odu köməyə çağırıblar. Məsələn, "Od haqqı", "Oda düşəsən," "Ocağın odlu olsun", "Ocağın qazan görməsin" və s.Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Ümumiyyətlə, bütün Çərşənbələrdə Od aparıcı motivdir. Bu, Od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur.Bu gün xalqımız öz ocağını Azərbaycanın hər bir məkanında yandırır. Odumuz, alovumuz hər yana yayılacaq.

Şuşamızın, Kəlbəcərin və başqa məkanların uca dağlarında yandırılacaq odun alovu ürəyimizi isidəcək, ruhumuza Novruzun müjdəçisi kimi hopacaq. Qoy hər zaman əzəli torpağımız üzərindən alovlanan qığılcımlar bizi yaşatsın. Varlığımızla torpağımıza isti şəfəqlər ələnsin. Od Çərşənbəniz MÜBARƏK!

***Zümrüd BAYRAMOVA***

Səs.- 2023.- 28 fevral.- S.6.